

Şərafəddin İLKİN

**MƏNİ SEVİRSƏNSƏ, MƏNDƏN UZAQ OL**

Dərdimiz bərabər doğulub bizim,
Qəmimiz, qüssəmiz çox olub bizim.
Xəmrimiz həsrətdən yoğrulub bizim,
Çalış öz evində yanan çıraq ol,
Məni sevirsənsə, məndən uzaq ol.

Yadıma saldıqca olub-keçəni
Həsrətdən saçımın çoxalar dəni.
İsti baxışların yandırar məni,
Könlümü üşüdən şaxta, sazaq ol,
Məni sevirsənsə, məndən uzaq ol.

Vallah, dözəmməzsən çəkdiyim dərdə,
Bəlaya düşərsən durduğun yerdə...
Çalış gözlərimə görünmə bir də,
Bir az kənar dolan, bir az qıraq ol,
Məni sevirsənsə, məndən uzaq ol.

Daha yanaqlarım qurumaz nəmdən,
Zilə yetməz səsim, ötərəm bəmdən.
Sevən qaça bilməz qüssədən, qəmdən,
Kədər zəmi olsa, biçən oraq ol,
Məni sevirsənsə, məndən uzaq ol.

Mən olum dərdindən gül kimi solan,
Darılma, onsuz da olacaq olan...
Məndən uzaqda gəz, kənarda dolan,
Demirəm saçımda gəzən daraq ol,
Məni sevirsənsə, məndən uzaq ol.

* * *

Yola çıxmamışdıq yolu azmağa,
Yuxu da görmədik xeyrə yozmağa.
Uğursuz bir eşqdən dastan yazmağa
Nə mən qələm olum, nə sən varaq ol,
Məni sevirsənsə, məndən uzaq ol.

**QƏDRİNİ BİLMƏDİN SƏN O OĞLANIN**

Dərdindən divanə bir oğlan vardı –
Qədrini bilmədin sən o oğlanın.
Gündə min yol sənə qurban olardı,
Qədrini bilmədin sən o oğlanın.

Nanə yarpağıtək könlü əsərdi,
Səni görmək üçün hey tələsərdi...
Yerinə kim olsa, qurban kəsərdi,
Qədrini bilmədin sən o oğlanın.

Gecənə nur saçan ay olacaqdı,
"Su" desən, qarşında çay olacaqdı...
Ömrünə ən şirin pay olacaqdı,
Qədrini bilmədin sən o oğlanın.

Sənin bir sözünə min "can" deyərdi,
İstəsən, alovdan paltar geyərdi.
Eh, onun olsaydı, nə idi dərdi...
Qədrini bilmədin sən o oğlanın.

Ona gen dünyanı eylədin qəfəs,
Sevib-sevilməyə qalmadı həvəs.
İndi ağlamağın əbəsdi, əbəs,
Qədrini bilmədin sən o oğlanın,
Qədrini bilmədin sən o oğlanın.

**BU GECƏ YUXUMA NİYƏ GƏLMƏDİN**

Öyrəşdim ətrinə, qoxuna sənin,
Sinəmi tuş etdim oxuna sənin,
Dedin: – "Gələcəyəm yuxuna sənin"
Bu gecə yuxuma niyə gəlmədin?

Ömrümü səninlə bölə bilərəm,
Dünyanı eşqimə kölə bilərəm,
Bilmirsən, qüssədən ölə bilərəm?
Bu gecə yuxuma niyə gəlmədin?

Bəxtim hicranamı tapındı gecə?
Qırdı ürəyimin sapını gecə,
Açıq saxlamışdım qapını gecə,
Bu gecə yuxuma niyə gəlmədin?

Könlüm inildəyən tar olar bu gün,
Eşqimiz ellərə car olar bu gün,
Gen dünya başıma dar olar bu gün,
Bu gecə yuxuma niyə gəlmədin?

Evimi sən belə yıxmazdın axı,
Qəlbimi həsrətdən sıxmazdın axı,
Hər gecə yuxumdan çıxmazdın axı –
Bu gecə yuxuma niyə gəlmədin?

Hicrana "get" dedim, axı getmədi,
Əridi könlümün yağı, getmədi...
Yuxuda gözümə yuxu getmədi,
Bu gecə yuxuma niyə gəlmədin?

**GÖYNƏDİRƏM ÜRƏYİMİN BAŞINI**

*"Aldadıram ürəyimin başını"*
**Xatirə Xatun**

Ağrılar, acılar düzülüb səfə,
Sinəmi tutublar yenə hədəfə...
Qayğısına qalmıram ki bir dəfə,
Göynədirəm ürəyimin başını.

Soruşmuram istəyi nə, qəsdi nə?
Arzulara gedən yolun kəsdi nə?
Gecə-gündüz dayanmışam qəsdinə,
Göynədirəm ürəyimin başını.

Bu uğursuz taleyimdən küsmüşəm,
Səadətdən ümidimi kəsmişəm.
O, Kərəmdi, mən insafsız keşişəm,
Göynədirəm ürəyimin başını.

Qınayıram nə qisməti, nə baxtı,
Bu da bir cür imtahandı, sınaqdı.
Dərdə-qəmə bələmişəm nə vaxtdı,
Göynədirəm ürəyimin başını,
Göynədirəm ürəyimin başını!